Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

May 2025

www.ereforms.gov.az
info@ereforms.gov.az

## COP29 BÖYÜK UĞURLARA İMZA ATMIŞ VƏ TARİXƏ "BAKI SIÇRAYIŞI" KİMİ DAXİL OLMUŞDUR.

COP29 böyük uğurlara imza atmış və tarixə "Bakı sıçrayışı" kimi daxil olmuşdur. COP29 zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan dövlət başçıları tərəfindən yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişi imzalanmışdır. Bu saziş ölkələrimizdə istehsal edilən yaşıl enerjinin Xəzər-Qara dəniz marşrutu ilə dünya bazarlarına ixracı üçün geniş imkanlar yaradır.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 21 may 2025-ci il tarixində Budapeştdə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündəki nitqindən**

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 15

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 18

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2025-ci ilin yanvar-aprel ayları ərzində qeyri-neft-qaz ixracı 1,1 milyard ABŞ dolları təşkil edib.

## Cari ilin yanvar-aprel ayları ərzində yeyinti məhsullarının ixracı 300,8 milyon ABŞ dolları olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın may sayını təqdim edib. İcmala əsasən, 2025-ci ilin yanvar-aprel aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 18% artaraq 1,1 milyard ABŞ dolları təşkil edib. 2025-ci ilin yanvar-aprel aylarında yeyinti məhsullarının ixracı 12,1% artaraq 300.8 milyon ABŞ dollarına bərabər olub.

2025-ci ilin yanvar-aprel aylarında ixrac olunan kimya sənayesi məhsulları ötən ilin müvafiq dövrünə nəzərən 35 milyon ABŞ dolları və ya 42,5%, şəkər 1,9 milyon ABŞ dolları və ya 25,8%, qara metallar və onlardan hazırlanan məmulatlar 4,1 milyon ABŞ dolları və ya 16,7%, meyvə-tərəvəz 26,8 milyon ABŞ dolları və ya 14,8 %, alüminium və ondan hazırlanan məmulatlar 6,1 milyon ABŞ dolları və ya 9,8%, pambıq iplik 360,9 min ABŞ dolları və ya 5,3% artıb.

Cari ilin ilk dörd ayında ixrac olunan aqrar məhsullar

14% artaraq 232,7 milyon ABŞ dolları, aqrar-sənaye məhsulları 7,9% artaraq 90,8 milyon ABŞ dollarına bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 12,2% artaraq 323,6 milyon ABŞ dolları təşkil edib.

Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (95,4 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pomidor (tomat) (74,7 milyon ABŞ dolları) ikinci, karbamid (63,5 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2025-ci ilin aprel ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (30,2 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pomidor (tomat) (30,16 milyon ABŞ dolları) ikinci, pambıq (22,1 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

Cari ilin ilk dörd ayında Rusiya Federasiyasına 321,4 milyon ABŞ dolları, Türkiyəyə 187,7 milyon ABŞ dolları, Gürcüstana 105,8 milyon ABŞ dolları, İsveçrəyə 100,5 milyon ABŞ dolları, Ukraynaya isə 63 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2025-ci ilin aprel ayında Rusiya Federasiyasına 88,5 milyon ABŞ dolları, Türkiyəyə 53,3 milyon ABŞ dolları, İsveçrə 30,9 milyon ABŞ dolları, Gürcüstan 25,1 milyon ABŞ dolları, Qazaxıstan isə 14,2 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.



# 2025-Cİ İLİN YANVAR-APREL AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

## (2024-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2025 İXRAC İCMALI may




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN APREL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2025
İXRAC İCMALI
may

2024 | 2025

+27%

**247.2 mln** (2024)

**313.9 mln** (2025)



Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

2025
İXRAC İCMALI
may

# 2025-Cİ İLİN APREL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)





Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN YANVAR-APREL AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2024-cü ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2025 İXRAC İCMALI may

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

**323,6 mln $**

2024/2025 **+12,2%**



2024/2025 **+14%**

**232,7 mln $**

**90.8 mln $**

2024/2025 **+7,9%**

# 2025-Cİ İLİN YANVAR-APREL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI may




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN APREL AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI may




Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

2025
İXRAC İCMALI
may

# 2025-Cİ İLİN YANVAR-APREL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2025 | 2024 |
|---|---|---|
| Qızıl | 95,4 | 31,4 |
| Tomat (pomidor) | 74,7 | 71,2 |
| Karbamid | 63,5 | 33 |
| Pambıq mahlıcı | 61,6 | 78,3 |
| Meşə fındığı | 53,4 | 40,8 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 39,8 | 35,6 |
| Metanol (metil spirti) | 36,4 | 29,2 |
| İlkin formalı propilen sopolimerləri | 34,8 | 30,6 |
| Xurma | 32,9 | 27,8 |

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN YANVAR-APREL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI may

| Mal | 2025 | 2024 |
|---|---|---|
| PE Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 29,9 | 29,2 |
| Elektrik enerjisi | 29,1 | 47,6 |
| Alma | 26,6 | 20,3 |
| PP İlkin formalı polipropilen | 17,9 | 21,2 |
| Daş kömür qatranının yüksək temperaturlu qovulmanın təmizlənməmiş digər yüngül yağları və məhsulları | 16,8 | 10,8 |
| PE Xüsusi kütləsi 0,94 və ya daha az olan ilkin formalı polietilen | 15,6 | 16,8 |
| Sement klinkerləri | 15,5 | 12,5 |
| Emal olunmamış alüminium ərintiləri | 14,8 | 11,3 |
| Kərə yağı | 14,2 | 12,4 |

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN APREL AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI may

| | 2025 | 2024 |
|---|---|---|
| Qızıl | 30,2 | 12,9 |
| Tomat (pomidor) | 30,2 | 26,1 |
| Pambıq mahlıcı | 22,1 | 21,8 |
| Mineral və ya kimyəvi azot gübrələri | 15,6 | 6,1 |
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 10,8 | 12,8 |
| Meşə fındığı | 10,4 | 9,2 |
| İlkin formalı propilen sopolimerləri | 10 | 5,8 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 9,4 | 8,5 |
| Metanol (metil spirti) | 8,1 | 6,4 |

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2025-ci ilin yanvar-aprel ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "MKT İstehsalat Kommersiya" MMC,"Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "UNİTED ALLİANCE GROUP LTD" Şirkətinin Azərbaycan Respublikasındakı filialı, "Baku Steel Company" QSC, "Avrora" Məhdud Məsuliyyətli Cəmiyyəti, "P-AQRO" MMC, "Export Stream" Məhdud Məsuliyyətli Cəmiyyəti,"BİNƏ AQRO" QSC, "Sahdag Sy" Məhdud Məsuliyyətli Cəmiyyəti, "LEPIN LM" Məhdud Məsuliyyətli Cəmiyyəti.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: “SOCAR Polymer” MMC, “AzerGold” QSC ,“Azəralüminium” MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC,"Azərbaycan Hava Yolları" QSC,“Azərenerji” ATSC,Naxçıvan MR Dövlət Energetika Xidməti,“Qaradağ Şüşə Zavodu” ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2025-Cİ İLİN YANVAR-APREL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI may





Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN YANVAR-APREL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2025 İXRAC İCMALI may




* “SOCAR Polymer” MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** “AzərGold” QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2025-ci ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") **5,6 milyon ABŞ dolları** dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2025-ci ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 40 ölkəsinə 5,6 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 65%-ni təşkil edib. 2025-ci ilin aprel ayında isə "Azərkosmos" dünyanın 38 ölkəsinə 1,6 milyon ABŞ dolları dəyərində xidmət ixrac edib.

2025-ci ilin yanvar-aprel ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 1,5 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 1,2 ABŞ milyon dolları ilə Lüksemburq, 255 min ABŞ dolları ilə Nigeriya, 238,6 min ABŞ dolları ilə Misir və 238,5 min ABŞ dolları ilə Türkiyə qərarlaşıb.

# 2025-Cİ İLİN YANVAR-APREL AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 5,6 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR

2025
İXRAC İCMALI
may



## Xidmət ixrac etdiyi 5 əsas ölkə

- **1,5 mln $** — Birləşmiş Krallıq
- **1,2 mln $** — Lüksemburq
- **255 min $** — Nigeriya
- **238,6 min $** — Misir
- **238,5 min $** — Türkiyə

**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
Center for Analysis of Economic Reforms and Communication
Центр Анализа Экономических Реформ и Коммуникаций


Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.



Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az


www.ereforms.gov.az

/iqtisadiislahat